# Nəyəsəklə Urğo Naçisin əhvalatı



*Qəşəm İsabəyli*
*Beynəlxalq Andersen Şərəf Diplomu laureatı*

(nağıl)

**1.**

Başında dəri papaq, əynində dəri palto, əli əlcəksiz, ayağı ayaqqabısız Nəyəsək at arabasından düşən kimi özünü verdi bazarın gur yerinə. Gəl ki, düşmənlənləri addım-addım izləyirdi onu. Pambıq ağlığında qar, bıçaq itiliyində Xəzri, qılınc kəsərində soyuq, canavar misalında aclıq... Bayaq Xəzri səmtini dəyişib, kababxana bacasından çıxan tüstünü Nəyəsəkə tərəf burdu. Nəyəsək dik atıldı - burnunu göyə tutub, yağlı, bozumtul havanı ciyərlərinə çəkdi:

-Oxxxayy... ləzzətini uddum, ətini də yeyəydim!- O dəqiqə də yumruğunu alnına çırpdı. - Aaaa... - Əlini cibinə salıb, bir 50 dollarlıq, bir də 50 manatlıq çıxarıb, tutdu göyə, sonra da gözlərinə yaxınlaşdırdı. Sanki saxta olub-olmadığını yoxlayırdı. Birdən qara üzünə al-qırmızı işıq çiləndi. - Bu boyda ömür yaşamışam, bir stəkan suyu da içməmişəm arvad-uşaqdan kənar. 15 manat özümə xərc eləsəm, boğazımda qalmaz, görəsən?! - Söz ağzından çıxar-çıxmaz başını çiyinlərinə çəkdi - gözləri dirəndi bir nöqtəyə. - Aaa... bəs arvad?! - Çox da fikir-ləşmədi. - Evə çatanda qaşqabağımı sallayıb, bir-iki ağız da ah çəkib, köks ötürərəm...

-Nə olub, ay kişicik?!

-Gənə də "kişicik"?!

-Nə qədər ki, ölməz çörəyi verirsən bizə, kişi olmağa hünərin çatmaz!

-Hmmm...

-Burnun niyə yerlə gedir?!

-Soruşmasan yaxşıdır!

-Saçı uzun Saray xanımdan gizli işin də vaar?! Vallah, gözünün ikisini bir deşikdən çıxararam.

-Cibimə giriblər...

-Nəəə?!... - Bir az özünü cırıb-töküb, ci-ci-ciyildəyəndən sonra inanacaq.

Aclıq Nəyəsəki necə gic eləmişdisə, beş addımlıqda dayanıb, gözlərini onun pullarına zilləyən köhnə qon-şusu, cibgir Urğo Naçisi görməmişdi. Nəyəsəkin ona fikir vermədiyini bilən Naçis dalıdalı çəkilib, özünü soxdu kababxanaya. Bir qədər pəncərədən çölə - qar altında dayanmış dostuna baxdı. Sonra başını eşiyə çıxartdı - əlini ağzına qoyub bağırdı:

-Nəyəsəəəəəək!

Nəyəsək dik atıldı - ayaqları havada titrəyib-əsib yerə dəyən kimi o üz-bu üzünə baxdı:

-Bu kimdi, görəsən?!

-Adə, burnunu bəri tut - kababxanaya!

Səs gələn səmtə çevriləndə Nəyəsəkin sevincdən qulaqları dik durdu:

-Urğooo! Xoş gördük! Xoş gördük! Neylirsən orda?!

-Nəyəsək, nə axmaq sual verirsən?!

- Dilçi alim kimi danışırsan, Urğo! Sualın da axmağı olur?!

-Kababxanada neyləyərlər?!

-Deyirəm... yəni cibində pulun var?

-Pul?! Mənimkində yoxdu, səninkində olsun! Qardaş deyilik?!

-Yox-yox! - Nəyəsək büzüşdü, - nə danışırsan, mənim cibimdə heç qarışqa da şıllaq atmır.

-Ay Nəyəsək, siçanların Allahı məni haçan pulsuz qoyub?! Bəri gəl, boğazımızı yaşlayaq.

Nəyəsək bayaq atılıb girdi kababxanaya:

-Oxqay! Nə yaxşı istidi bura! - İki dost qucaqlaşdı.

-Bu nə ətirdi vurmusan, Nəyəsək?! - Urğo onun çiyinlərindən tutub, özündən bir qədər araladı, dik gözlə-rinin içinə baxdı. - Tapdım. Tapdım. - Gözlərini qıyıb, pıçıldadı. - Ay qırışmaaaal... pul iyi gəlir səndən!

-Yox-yox, pul nə gəzir məndə?! - Nəyəsək onun sinəsindən itələdi. - Nə özüm işləyirəm, nə arvad. Bir yığın da havayı yeyən...

-Onlar kimdi?

-Uşaqları deyirəm.

-Qulağım dincdi.

-Evlənməməkdə kişi işi görmüsən!

-Nə yeyəcəyik, Nəyəsək?

-Mə-ən?! Mən heç nə!

-Bayaq axmaq sual vermişdin, indi də axmaq cavab verdin.

-Dilçi alim kimi danışırsan, Urğo. Bəlkə akademiyada-zadda işləyirsən?! Cavabın da axmağı olur?!

-Bəs kababxnaya oynamağa girmisən?

-Mani... mani... - Nəyəsək baş barmağıyla şəhadət barmağını cütləyib, bir-birinə sürtdü?!

-Nəyəsək, vallah, sən əvvəldən də gözüaçıq idin, indi görürəm bir az da üstünə qoymusan.

-Nə mənada?

-İngiliscə qırıldadırsan?!

-Ziyalı gərək ingiliscə bilsin!

-Mənim başım belə şeyləri bişirməz. Bir də ki, səni bura mən çağırmışam, pul mənlikdi!

-Çox sağ ol, əziz dost! Səni həmişə mərd görmüşəm!

Keçib stolun dalında əyləşən kimi Nəyəsək burnunu havaya tutub, iylədi və əlini əlinə sürtdü:

-Ləzzət!

-Adə! - Urğo xörəkpaylayanı çağırdı. Oğlan çaparaq gəldi. -Nə verəcəksən bizə?

-Yaxşı atmilçəyi basdırması var, keçməli deyil.

-Elə bu?!

-Çəyirtkə kababı, tarakan xaşı, soxulcan borşu, qarışqa yumurtası da gəlib, istəsəniz, tut qurusuyla qayğa-naq verərəm sizə. Barmağınızın beşini də yalayarsınız.

-Adə, bizim yumurta yeyən vaxtımızdı?!

-Bəy, borcumdu sizə xörəklərimiz haqqında məlumat verim!

Urğo Nəyəsəkə tərəf çevrildi:

-Əziz dost, ürəyin nə istəyir?

-Mənə iki şiş çəyirtkə kababı - antrikot olsun.

Xörəkpaylayan dəftərçəyə yazdı.

-İki şiş də mənə, yarım kasa da soxulcan borşu. Nəyəsək, duru yeməyəcəksən?

-Mənimki kababdı.

-Göy-göyərti, pendir, çörək də öz qaydasıyla.

-Bəs içməyə?

-"İstisu"...

-Uğro, deyəsən, yuxu görürsən!

-Yuxu?! Yatmışam, bəyəm?!

-Adə, "İstisu" Kəlbəcərdədi, Kəlbəcər də ermənilərdə.

-"İstisu" olmasın, "Badamlı" olsun!

-İki şüşə bəsimizdi. Amma sərin.

-Yox, mənim badamcıqlarım otaq temperaturundan kənar heç nəyə dözmür. - Nəyəsək əlini boğazına sürtdü.

-"Badamlı"nın birini isit.

-Spirtli nə istəyirsiniz?

Urğo yenidən Nəyəsəkə baxdı:

- Əziz dost?

- İçki? Ruslar qədim Türk torpağı Krımı Ukraynanın əlindən alandan sonra, öz işğalçılığı şərəfinə araq bu-raxıb. Dayan-dayan, görüm, adını yadıma sala bilirəm?! -Nəyəsək xörəkpaylayanı köməyə çağırdı. - Bəlkə sən deyəsən?

-Nə?

-Krımı işğal eləyib öz torpaqlarına qatmaq şərəfinə Ruslar araq buraxıb ey...

-"Dovşan sidiyi"ni deyirsən?

-Hə, hə!

-Bizdə çəkilən olmasın, ha! - Urğo xəbərdarlıq elədi.

-Birbaşa Moskvadan alırıq.

-Bacıoğlu, qəlyanaltını tez gətir. Acından qarnımız adam kimi fit çalır. - Urğo xörəkpaylayana göstəriş ve-rib, əlini qoydu Nəyəsəkin çiyninə. - Maşallah, pis qalmamısan! Görünür, bəxtinə yaxşı arvad çıxıb.

-Arvadın yaxşısı olmaz!

-Bəs cavanlığının sirri nədi?

-Özümə baxıram.

-O da böyük şeydi! - Urğo Naçis ah çəkdi. - Amma mən yazığın nə baxanım var, nə də özüm-özümə baxa bilirəm!

Xörəkpaylayan cəld yaxınlaşıb, əlindəki məcməyini ortalığa qoydu.

-Adə, bu nədi? - Urğo hirsləndi. - Kərə yağı nəyimə lazımdı günün günorta çağı?! Hələ süzmə də gətirib!

-Bəy, nə istəyirsiniz, götürün, qalanını aparacam!

-Bir dənə kələm tutması, pendir, bir də göy-göyərti qalsın.

-İki diş də sarımsaq. - Nəyəsək dilləndi.

Xörəkpaylayan məcməyini götürdü:

- Nuş olsun!

Urğo əlini çörəyə uzatdı:

-Bismillah!

-Bismillah! - Nəyəsək də bir dilim götürüb, iyləyib, o üz-bu üzünə çevirdi. - Yaxşı bişiriblər.

-Buyurun, - xörəkpaylayan yenidən qayıdıb, ortalığa dovşanın dal ayaqları üstə dayanmış vəziyyətini əks

etdirən bir şüşə araq qoydu.

Urğo Naçis araq şüşəsini əlinə alıb, etiketini oxudu:

-Birinci dəfədi görürəm! -Sonra hərəyə yüz-yüz süzdü. - Götür, görək. - Nəyəsək ağzındakı tikəni tələsik udub, badəni qaldırdı. - Kimin sağlığına içək?

-Özümüzün desəm, bu, düzgün olmaz. - Nəyəsək dilləndi. - Çünki hələ nəfəsimiz gedib-gəlir, deməli sa-ğıq.

-Sənin sözündən belə çıxır ki, biz ölülərin sağlığına içməliyik?

-Səbrin olsun! - Nəyəsək başını sikələdi. - İçək acların sağlığına!

-Allaha and olsun, başın işləyir, Nəyəsək! - Urğo badəni boyu bərabəri qaldırdı.

Xörəkpaylayan kababları da gətirdi:

-Ayrı bir qulluq?

-Tez-tez gəlib, başımızın üstünü kəsdirmə, qoy yediyimiz canımıza çıxsın. - Urğo onu acıladı.

Nəyəsək bir qabırğa kababı götürüb, əvvəlcə iylədi, sonra da dişinə çəkdi:

-Həm əti təzədi, həm də həl bişib.

-Bura "Qəbələ" restoranlarından sonra birincidi.

Başladılar iştahla yeməyə.

-Nəyəsək.

-Can!

-Deyirəm, bu dünyada varlılardan yazığı yoxdu!

Nəyəsək əlindəki tikəni boşqaba qoyub, gözlərini zillədi Urğoya:

-Soruşmaq ayıb olmasın, bəs onda biz nəyik?!

-Biz varlılardan xoşbəxtik!

Nəyəsək lap çaşıb qaldı:

-Ac adamın özünə təsəlli verməsindən hünər iş tanımıram!

-Mən deyim, sən eşit.

-De.

Urğo əlindəki tikəni qoydu boşqaba:

- Götürək özümüzü. Bax, elə bil bir cüt ac canavarıq, düşmüşük kababın üstünə!

-Hmmm...

-Səbəbini deyə bilərsən bu vəhşiliyimizin?

-Sənin bu haqsız iddialarına mat qalmışam! Haçandan acıb, iştahla yemək vəhşilik hesab olunur?!

-Bax, atan oldu rəhmətlik, az dedin, düz dedin - acıb. Mən də onu deyirəm də, Nəyəsək. Yəni biz kasıblar acırıq. Bu yazıq varlılar aca bilmir axı! Ona görə də yemək xatirinə yeyirlər. Yəni, candərdi. O yemək də təzə qana dönmək əvəzinə dönüb olur qan təzyiqi, köklük azarı, şəkər xəstəliyi. Sən bilirsən şəkər xəstəliyi nədi?

-Mən bir "şəkər" tanıyırıam, onunla da çay içirəm.

-Bu sənin xoşbəxtliyindi!

-Urğo, sən məni inandıra bildin, doğrudan da görürəm, dünyada varlılardan bədbəxti yoxdu! Gəl biz də kişilik eləyək!

-Necə?

-İçək onların sağlığına.

-Sözündən belə anlayıram ki, istəyirsən varlılar bir az da varlı olsun!

-Hələ bir yapış badədən. - Nəyəsək başını qaldırıb, dik-dik ona baxdı.-Urğo!

-Can!

-İçək bu badələri aclığın nə olduğunu bilməyən varlıların sağlığına. Allah onları acdırsın!

Urğo sol əlini başı bərabəri qaldırdı:

-Tam səninlə razılaşa bilmərəm!

-Nəyi düz deməmişəm?!

-Mən deyim, sən eşit - içək varlıların sağlığına...

-Mən ermənininin xaçına söyürdüm?!

Urğo sol əlini açıb, dikinə tutdu, yəni "sakit ol". Nəyəsək də sol əlini üfüqi şəkildə açıb irəli uzatdı, yəni "buyur!".

-Nəyəsək, içək varlıların sağlığına. Allah onlara ayda bir-iki dəfə də olmuş olsa aclıq qismət eləsin!

-Amin!

**2.**

Nəyəsəklə Urğo Naçis, yəni Kəsəyənlə Oğru Siçan gecə yarıyacan yeyib-içdilər. Axırda hərəsi başını öz tərəfinə qoydu - bir anda kababxananı xorultu basdı. Xörəkpaylayan ha çağırdı, ha bağırdı, ha tutub onları silkələdi, ayılmadılar. Müdirin yanına qaçdı:

-Bəs bunların yeyib-içdiyinin xərcini kimdən alacam?!

-Qaçıblar?!

-Yatıblar.

-Gedək görək hansının cibində nə var.

Əvvəlcə Urğo Naçisin cibini eşələdilər - bir dənə çolaq qarışqa tapdılar.

- Bunun xasiyyəti onun-bunun hesabına yeyib-içmək olar. Pul nə gəzir bunda?!

Xörəkpaylayan Nəyəsəkin yan cibindən əlli manatı tapıb çıxartdı.

-Çatar?! - Müdir soruşdu.

-Çatmağına çatar, bəs mənim hörmətim?!

-O biri ciblərinə də bax.

Yan cibindən isə uzun bir siyahı çıxdı. Xörəkpaylayan diqqətlə heccələməyə başladı:

-25 iyun 2015-ci il. Bazarlıq siyahısı. Almalıyam - 7 dənə tarakan, 7 dənə arpa, 3 soxulcan, 1 ədəd çəyirt-kə...

-Dayan, dayan, hesab dərsi keçmə bizə. Döş cibinə bax!

Xörəkpaylayan 50 dolları da tapdı - uzatdı müdirə.

-Mənə niyə?! Xırdala, 2 manat zəhmət haqqını götür, qalanını da qoy yerinə.

-Bunlar elə burda da qalsın? - Xörəkpaylayan soruşdu.

-Yox, Nəyəsəki aparaq ataq zirzəmiyə, Urğo davakarın biridi, ayılanda özünü burda görməsə, bizimlə sa-vaşar.

Müdir başından, xörəkpaylayan ayağından yapışıb, Nəyəsəki götürdü.

-Pah atonnan! Soxulcana oxşayır, amma ağırlığına bax! - Müdir dilləndi.

-Səhərdən daşıyıb tökürəm bunların qarnına - 2 dənə "Dovşan sidiyi", 12 andrikot, 4 "Badamlı", 4 atmil-çəyi basdırması...

-Yaxşı ki, partlamayıblar!

**3.**

Kababxana müdiriylə xörəkpaylayan yenidən salona qayıtdılar.

-Mən getdim, - Müdir paltosunu əyninə geydi. - Otaqları sil-süpür, stol-stulu səliqəyə sal, get evində ge-cələ!

-Burda qalmayım?

-Mətbəxin, bufetin ağzını yaxşı-yaxşı bağla, get. Gecən xeyrə qalsın! - Müdir qapıdan çıxdı.

-Xeyrə qarşı!

Xörəkpaylayan verilən tapşırıqları yerinə yetirib, gödəkçəsini əyninə taxdı. Kababxananın qapısını daldan bağlayıb, düşdü zirzəmiyə.

-Nəyəsək, yazığım gəlir sənə, gecə soyuq dəyər, xəstələnərsən, gəl min qucağıma! - Bayaq Nəyəsəki hoppadan götürüb aparıb qoydu Urğo Naçislə üz-üzə. - Baxım görüm pulların yerindədi? - Yavaşca əlini saldı Nəyəsəkin döş cibinə, pulları çıxarıb başladı yenidən saymağa. - Dostum, yuxudan ayılıb, cibini boş görsən, Urğodan yapışarsan. Amma bundan sonra yaxşı-yaxşı yadında saxla - yeyib-içəndə yoldaşını tanı! Mən yazıq bir xörəkpaylayanam. Əlimdən dua eləməkdən başqa bir şey gəlmir - Gecən xeyrə qalsın, yuxun şirin olsun, Nəyəsək! - Xörəkpaylayan kababxananın qapısını bağlayıb, fitləyə-fitləyə at arabasına tərəf getdi.

**4.**

Yarım saat sonra kababxana müdiri qayıdıb gəldi. Qapını açıb, ayağını içəri qoyan kimi tələsə-tələsə gedib girdi zirzəmiyə. Nəyəsəki yerində tapmayanda gözləri bərələ qaldı:

-Ayılıb gedib bu?! - Tez atılıb yuxarı qalxdı. - Bıy! - O yan-bu yana baxıb, yavaşca yaxınlaşıb əlini saldı Nəyəsəkin döş cibinə. - Baxım görüm pulların yerindədi?! - Baho!... cibin boşdu ki?! - Müdir Nəyəsəkin ayaq-qabısını belə soyundurub, içinə baxdı. - Həəə... quldur oğlu, quldur! - Xörəkpaylayanın dalıyca bir-iki də pis söz deyib, kababxanadan çıxdı! - Sabah səni işdən qovmaq mənə borc olsun! Bir ay deyil gəldiyi üçüncü dəfədir müştərini soyur.

**5.**

Dünyanın hər bicliyini bilən Nəyəsək bir şeyi başa düşmədi ki, varlıların sağlığına içmək hələm-hələm ka-sıba xeyir gətirməz.